# Azərbaycan Pen-klubunun Avropanın yazıçı və jurnalistlərinə müraciəti

Avropanın bəzi xadimlərinin Azərbaycandakı vəziyyətlə bağlı növbəti dəfə məsuliyyətsiz və Qərb meyilli çağırışlar səsləndirmələri bizi təəccübləndirir və hiddətləndirir. Bu xadimləri Avropa şəhərlərinin küçələrində müqəddəs Quranın yandırılması, Avropaya mühacirət etmək istəyən yüzlərlə qaçqının həlak olması narahat etmir. Onlar yenidən demokratiya və insan haqları ilə bağlı şəxsi mülahizə və düşüncələrinə istinad edərək bizim ölkəmizin daxili işlərinə qarışmağa cəhd edirlər. İki qonşu dövlətin sülh müqaviləsinin bağlanmasına yaxınlaşdığı indiki şəraitdə, Azərbaycanın öz ölkəsində vəziyyəti sabitləşdirdiyi bir vaxtda belə qızışdırıcı hücumlar birbaşa konfliktin davam etdirilməsinə yönəlmişdir və sağlam düşüncəli bütün insanlarda qəzəb doğurur.

*Pen-klubun prezidenti, Xalq yazıçısı* **Çingiz Abdullayev**

*Pen-klubun vitse-prezidenti, Xalq yazıçısı* **Natiq Rəsulzadə**

Müraciətin mətni Azərbaycan və rus dillərində yazılmış, ingilis, fransiz və alman dillərinə tərcümə olunmuşdur.

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 23 sentyabr.- S. 3.